# "Azərbaycan musiqisinin inciləri" adlı kitab nəşr olunub

**Azərbaycan Diasporuna Dəstək Fondunun təşəbbüsü və maliyyəsi ilə "Azərbaycan musiqisinin inciləri" adlı kitab nəşr olunub.**




Azərbaycan Respublikasının Himni və onun notları ilə başlayan, xalq və bəstəkar mahnılarından ibarət bu kitab Azərbaycan və ingilis dillərində tərtib edilib. 50 xalq və 32 bəstəkar mahnısının sözləri və notlarının qeyd olunduğu kitab xaricdə yaşayan, orada doğulub, boya-başa çatmış soydaşlarımızın milli vətənpərvərlik ruhunda yetişməsinə, mədəniyyətimizin təbliğinə, soydaşlarımızın professional səviyyədə musiqi biliklərinin artmasına töhfə verəcək. Kitabda həmçinin Azərbaycanın görkəmli bəstəkarları və müxtəlif xalq mahnıları haqqında ətraflı məlumat öz əksini tapıb. Sözügedən bu kitabın nəşr olunması dünya azərbaycanlıları və Azərbaycan musiqisinə maraq göstərən əcnəbilər tərəfindən milli musiqimizin öyrənilməsi və təbliğ edilməsi baxımından da aktualdır.

Kitab SSRİ-nin və Azərbaycan Respublikasının Xalq artisti, Dövlət mükafatı laureatı, Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəylinin "Ön söz"ü ilə nəşr olunub.

Xatırladaq ki, "Azərbaycan musiqisinin inciləri" kitabı xaricdə yaşayan soydaşlarımız, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diaspor təşkilatları və Azərbaycan evləri ilə yanaşı, həmin ölkələrdə musiqi təhsili verən ali təhsil ocaqlarının kitabxanaları üçün də qiymətli əyani vəsait olacaq.

Kitab mədəni irsimizin beynəlxalq aləmdə tanıdılması üçün həyata keçirilən davamlı fəaliyyətin bir parçasıdır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 9 sentyabr.- S.11.